Məqalə KİVDF-nin maliyyə dəstəyi ilə "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" istiqaməti üzrə həyata keçirilən layihə çərçivəsində hazırlanmışdır

KİVDF
www.kivdf.gov.az

# Azərbaycanın regionlarında yolların abadlaşdırılması geniş vüsət alıb

*Müvafiq Dövlət proqramlarının icrası nəticəsində son 12 ildə ölkədə 10 min kilometrdən çox yol çəkilməsi, 6 hava limanı tikilməsi respublikanın bölgələrinin sosial-iqtisadi inkişafına əlavə impuls verir*



Son 12 ildə Azərbaycanın bütün dünya üçün nümunə göstərilən dinamik sosial-iqtisadi inkişaf modelindən söhbət açarkən bütün ölkəboyu güclü infrastrukturun yaradılmasına böyük diqqət göstərilməsini xüsusi qeyd etmək lazımdır. Bəhs olunan dövrdə Prezident İlham Əliyevin Azərbaycanı hər cəhətdən müasir ölkəyə çevirməklə bağlı müəyyənləşdirdiyi strategiyaya uyğun olaraq ardıcıl surətdə həyata keçirilən layihələr sayəsində istər paytaxt Bakıda, istərsə də regionlarda sosial və iqtisadi sektorlara aid infrastrukturun yenilənməsi istiqamətində böyük iş həcmi yerinə yetirilib. Bunun sayəsində də hazırda Azərbaycan mükəmməl infrastruktur təminatına malik ölkəyə çevrilib. Qısa müddətdə ölkədə 25 elektrik stansiyasının, 6 yeni hava limanının, nəhəng ticarət limanının tikilib istifadəyə verilməsi böyük nailiyyətdir. Hazırda respublika üzrə qazlaşdırmanın səviyyəsi 90 faizə çatdırılıb. Ölkənin bütün regionlarında həyata keçirilən su-kanalizasiya layihələri sayəsində artıq bir sıra iri şəhərlərdə əhaliyə 24 saat fasiləsiz keyfiyyətli su verilir, eyni zamanda, bölgələrdə əvvəllər içməli su qıtlığından ciddi əziyyət çəkən yaşayış məntəqələrinin təminatı əhəmiyyətli dərəcədə yaxşılaşıb. Yaradılan mükəmməl infrastruktur əhalinin həyat səviyyəsinin yüksəlməsinə təsir göstərən mühüm faktor qismində çıxış etməklə yanaşı, qeyri-neft sektorunun üstün inkişafı, daxili istehsalın genişləndirilməsi baxımından da böyük əhəmiyyət daşıyır. Ölkəmizin regionlarında müasir infrastruktur yaradılmasının əsas xarakterik cəhəti isə ondan ibarətdir ki, dövlət yeni infrastruktur obyektlərinin yaradılmasının maliyyə təminatını bir qayda olaraq öz öhdəsinə götürür. Sonradan bu layihələr bölgələrin və bütövlükdə ölkənin inkişafına təkan verən vacib faktora çevrilir.

Əsas məqamlardan biri ondan ibarətdir ki, ölkə miqyasında yeni infrastruktur layihələrinin yerinə yetirilməsi davamlı xarakter daşıyır. Bu baxımdan respublikamızda qlobal mənfi təsirlər nəticəsində yaranan yeni iqtisadi şərait də istisna deyil. Azərbaycan dövləti özünün davamlı inkişaf strategiyasına sadiqlik nümayiş etdirərək bir sıra çətinliklərlə müşayiət olunan yeni iqtisadi şəraitdə də respublikanın infrastruktur təminatının yaxşılaşdırılması ilə bağlı tədbirləri davam etdirir. İnfrastrukturun yaxşılaşdırılması baxımından cari ilin birinci yarısı da istisna olmayıb. Belə ki, bu sahədə heç bir layihə ixtisara salınmayıb, əksinə, ölkənin müxtəlif bölgələrində insanlar infrastruktur obyektlərinin istifadəyə verilməsinin sevincini yaşayıblar. Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2016-cı ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasındakı nitqində ölkəmizi fərqləndirən bu cəhətə diqqət çəkərək vurğulayıb ki, bu ilin əvvəlindən infrastruktur layihələri icra edilir.

## ÖLKƏNİN YOL-NƏQLİYYAT İNFRASTRUKTURUNUN YENİLƏNMƏSİ BİR SIRA MÜHÜM AMİLLƏRLƏ ŞƏRTLƏNİR

Son 12 ildə Azərbaycanın müasir infrastruktur quruculuğu istiqamətində əldə etdiyi uğurlardan söhbət açarkən ölkənin yol-nəqliyyat imkanlarının davamlı olaraq genişləndirilməsini xüsusi vurğulamaq lazımdır. Respublikamızda qısa müddətdə kifayət qədər yüksək səviyyəli yol-nəqliyyat infrastrukturu yaradılıb - bu sahədə irimiqyaslı layihələr həyata keçirilib, dünya standartlarına cavab verən yeni yollar çəkilib, yol ötürücüləri, körpülər, yeraltı və yerüstü piyada keçidləri tikilib. Paralel surətdə, daşımaların idarə olunması mexanizmi təkmilləşdirilib və ölkəmizin beynəlxalq nəqliyyat sisteminə inteqrasiyası genişlənib. Həyata keçirilən bu və ya digər tədbirlər sayəsində ölkəmizdə sərnişin və yük daşımalarının həcmi əhəmiyyətli dərəcədə artıb.

Azərbaycanda son 12 ildə müasir yol-nəqliyyat infrastrukturu yaradılmasına böyük diqqət yetirilməsi və bu sahəyə iri həcmlərdə investisiyalar yönəldilməsi bir sıra amillərlə şərtlənir. Biz yuxarıda müasir infrastruktur yaradılmasının ölkənin sosial-iqtisadi inkişafı baxımından böyük önəm daşıdığını vurğuladıq. Respublikamızda yol-nəqliyyat infrastrukturunun yenilənməsini zəruri edən digər mühüm amil isə Azərbaycanın tranzit daşımaları üçün əlverişli məkan olması ilə bağlıdır. Azərbaycanın coğrafi mövqeyi ölkəmizin istər Şərq-Qərb, istərsə də Şimal-Cənub dəhlizlərində vacib rol oynamasını şərtləndirir. Respublikamız həm ölkədaxili ictimai-siyasi sabitlik baxımından, həm də quru və su sərhədlərinə malik olmasına, eləcə də iqtisadi resursların görə beynəlxalq tranzit daşımaları üçün kifayət qədər cəlbedici məkandır. Bütün bu deyilənlərə dövlət səviyyəsində yüksək siyasi iradə nümayiş etdirildiyini də əlavə etsək, onda Azərbaycanın müxtəlif istiqamətlərdə tranzit daşımaları üçün necə əlverişli ölkə olduğu barədə konkret təsəvvür yaranar.

Beləliklə, beynəlxalq əhəmiyyətli yolların yenidən qurulması Azərbaycanın tranzit imkanlarını daha da artırır. Hazırda Azərbaycan regionda yeni əməkdaşlıq platformalarının yaranmasına daha sanballı töhfələr vermək üçün həm Şərq-Qərb, həm də Şimal-Cənub dəhlizlərinin öz ərazisindən keçən hissəsinin yüksək dünya standartları səviyyəsində qurulması üçün bütün zəruri tədbirləri həyata keçirir. Prezident İlham Əliyev Şərq-Qərb nəqliyyat dəhlizinin mühüm tərkib hissəsi olan beynəlxalq miqyaslı İpək Yolu layihəsinin inşasını daim diqqət mərkəzində saxlayır. Həmin layihə Avropa-Asiya və Yaxın Şərq ölkələri ilə, həmçinin respublika ərazisində nəqliyyat əlaqələrinin inkişafında mühüm rol oynayır. İndiyədək qədim İpək Yolunun bərpası layihəsi çərçivəsində respublikamızın ərazisində böyük iş həcmi yerinə yetirilib. Eyni zamanda, Şimal-Cənub nəqliyyat dəhlizinin respublikamızın ərazisindən keçən hissəsinin tikintisi də sürətlə davam etdirilir. Ölkənin yol-nəqliyyat sistemində mühüm yer tutan və Şimal-Cənub nəqliyyat dəhlizinin bir hissəsini təşkil edən Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolu boyunca əsaslı yenidənqurma işləri həyata keçirilir, magistralda hərəkətin təhlükəsizliyinə və intensivliyinin artırılmasına hesablanan bir sıra mürəkkəb layihələr reallaşdırılır. Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2016-cı ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasındakı nitqində ölkəmizin ərazisindən keçən magistral yollarda işlərin intensiv şəkildə davam etdirilməsindən məmnunluğunu ifadə edərək deyib: **"Qeyd etməliyəm ki, magistral yollarda işlər gedir. Gəncə-Gürcüstan sərhədi yolu dörd zolağa çevrilir. Genişlənmə işləri gedir. Bu il Rusiya sərhədinə qədər magistral yolda böyük işlər görülməlidir. Bizim qurumlar çalışmalıdırlar ki, bu yolu da başa çatdırsınlar. Bakı-Şamaxı yolunun dörd zolağa çevrilməsi prosesi gedir və Bakı-İran sərhədi magistral yolunda da tikinti işləri davam edir".**

## ÖLKƏ ƏRAZİSİNDƏ 10 MİN KİLOMETRDƏN ÇOX YOL ÇƏKİLMƏSİ BÖYÜK NAİLİYYƏTDİR

Son 12 ildə Azərbaycanın bütün regionlarında yol-nəqliyyat infrastrukturunun yenilənməsi ilə bağlı statistika kifayət qədər zəngindir. Regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramlarında dəmir yolu, hava, su nəqliyyatı və avtomobil yolları ilə bağlı 64 tədbir nəzərdə tutulub. Artıq nəzərdə tutulan layihələrin bir çoxu yüksək səviyyədə tamamlanıb. Belə ki, ilk iki Dövlət Proqramının həyata keçirildiyi 2004-2013-cü illərdə respublikada yeni tikilən, yenidən qurulan, əsaslı təmir olunan yolların uzunluğu 9 min kilometri ötüb, bu müddətdə 250 yeni körpü, tunel və yol ötürücüsü inşa edilib. Haqqında bəhs olunan dövrdə Azərbaycanın bölgələrində 6 aeroport tikilib ki, onlardan da 4-ü beynəlxalq səviyyəlidir. Heydər Əliyev beynəlxalq aeroportunun yeni aerovağzal kompleksi isə 2014-cü ildə istifadəyə verilib. Bütün bunların nəticəsidir ki, indi respublikanın bölgələrindən də beynəlxalq uçuşlar həyata keçirilir və bu amil Azərbaycanın regionlarının inkişafına əlavə impuls verir. Prezident İlham Əliyev "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının ikinci ilinin yekunlarına həsr olunan konfransdakı nitqində ölkədə yol-nəqliyyat infrastrukturunun yenilənməsindən məmnunluğunu ifadə edərək deyib: **"Son 12 il ərzində on min kilometrdən çox yol çəkilmişdir. Bizim bir dənə də olsun magistral yolumuz yox idi. Yəqin ki, çoxları bunu xatırlamır, hansı vəziyyətdə idi bizim yollarımız. İndi magistral yollar - şəhərləri, başqa ölkələri birləşdirən yollar çəkilib və çəkilir, kənd yolları on min kilometrdir"**

Yol-nəqliyyat infrastrukturunun yenilənməsi ilə bağlı layihələr regionların sosial-iqtisadi inkişafına dair 2014-2018-ci illəri əhatə edən üçüncü Dövlət Proqramı çərçivəsində də intensiv şəkildə davam etdirilir. Yeni Dövlət Proqramının icrasının birinci ili ərzində daha 960 kilometr ölkə və yerli əhəmiyyətli avtomobil yolu, 30-dan çox yeni körpü və yolötürücüsü tikilib və ya təmir olunub. Yol infrastrukturunun yenilənməsi 2015-ci ildə də həyata keçirilib. Belə ki, ötən il 400 kilometrdən artıq ölkə və yerli əhəmiyyətli avtomobil yolu, 12 yeni körpü və yolötürücüsü tikilib və ya təmir olunub. Həyata keçirilən layihələr ölkənin yol təsərrüfatında vəziyyəti tamamilə dəyişib.

## CARİ İLDƏ KƏND YOLLARININ TİKİNTİSİ DƏ DİQQƏT MƏRKƏZİNDƏ SAXLANILIR

Prezident İlham Əliyevin respublikamızda yol-nəqliyyat infrastrukturunun yüksək səviyyəyə qaldırılması sahəsində qarşıya qoyduğu yeni hədəflərdən biri də kənd yollarının yenidən qurulması ilə bağlıdır. Bütövlükdə son illərdə bu sahəyə ayrılan vəsaitin həcmi getdikcə artır. Əhalinin böyük əksəriyyəti, xüsusilə kəndlərdə yaşayan insanlar artıq yaxşı yollarla təmin olunublar. Ancaq hələ də bərbad vəziyyətdə olan yollarımız vardır. Dövlət başçısı tərəfindən qarşıya növbəti 3-4 il ərzində Azərbaycanda bütün kənd yollarının təmirinə nail olmaqla bağlı ciddi vəzifə qoyulub. İnsanların əziyyət çəkməmələri üçün kənd yolları yüksək səviyyədə asfaltlaşdırılmalıdır. Prezident İlham Əliyev Nazirlər Kabinetinin bəhs olunan iclasındakı nitqində cari ildə ölkəmizin bütün bölgələrində kənd yollarının tikintisinin daha geniş vüsət aldığını nəzərə çatdıraraq bildirib: **"Kənd yollarının tikintisi çox sürətlə aparılır. Bu məqsədlər üçün dövlət büdcəsindən 200 milyon manat vəsait ayrılıb. Təxminən 60-70 kənd yolu layihəsi o cümlədən Bakı qəsəbələrində icra edilir və ediləcək. Bunun da çox böyük təsiri olacaq".**

**(davamı növbəti sayımızda)**

**Mübariz ABDULLAYEV**